# COP 29 - Azərbaycanın növbəti diplomatik zəfəri

2023-cü ilin dekabrında beynəlxalq ictimaiyyətin yekdil rəyi ilə COP29-un, yeni BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilməsinə dair qərar qəbul edildi. Bu, Azərbaycanın yalnız qlobal iqlim diplomatiyasının deyil, həm də beynəlxalq siyasətdə artan nüfuzunun göstəricisi idi. Konfransın nəticələri dünya ictimaiyyətində "Bakı sıçrayışı" adlandırılaraq, gələcək iqlim tədbirləri üçün strateji bir baza yaratdı. 2020-ci və 2023-cü illərdə Azərbaycan ordusu dünya hərb tarixinə necə yeniliklər gətirmişdisə, Azərbaycan diplomatiyası da COP29-da dünya diplomatiya tarixinə öz adını qızıl hərflərlə yazdırdı. Baxmayaraq ki, COP29-a hazırlıq üçün Azərbaycanın bir ildən də az vaxtı var idi, biz bu işləri yüksək səviyyədə görüb bitirə bildik. Bütün bunlar Azərbaycanda formalaşmış unikal bir reallığın, dövlət - xalq birliyinin təcəssümü oldu. Belə ki, 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın işğal altında olan ərazilərini Ermənistanın işğalından azad etmək üçün hərbi əməliyyatları başladanda da, cəmiyyət bütün təbəqələri ilə bir vahid orduya çevrildi. Döyüş əmrini Silahlı Qüvvələrin Ali Baş Komandanı verməsinə baxmayaraq, bu əmrə ölkənin silahsız qüvvələri də yeddidən-yetmişə düzləndi və Azərbaycan tarixi qələbəyə nail oldu. Bu birliyi biz COP29 zamanı da gördük, on minlərlə qonağın gələcəyini, yüzə yaxın dövlət və hökumət başçılarının Bakıya səfər edəcəyini nəzərə alaraq, Azərbaycan dövləti bəzi addımlar atdı, nəqliyyatın və bütün başqa zəruri xidmətlərin işində müəyyən dəyişiklik edildi. Cəmiyyətə də çağırışlar oldu və hər kəs bu qərarları anlayışla qarşıladı. Nəticədə Azərbaycan "Siyasətin Olimpiadası" adlandırılan bu qlobal konfransı yüksək səviyyədə təşkil etdiyi kimi, məharətlə və cəsarətlə idarə elədi, uğurlu nəticə ilə yekunlaşmasına nail oldu.




Doğrudur, buna nail olmaq dünyanın inkişaf etmiş ölkələrindən - ABŞ, Avropa İttifaqı, Çin kimi qlobal aktorların qərarlarından asılı idi. Azərbaycan bir tərəfdən haqsız və intensiv təzyiqlərə müqavimət göstərirdi, digər tərəfdən isə COP29-un dünya üçün iğurlu nəticə ilə yekunlaşmasına görə bütün diplomatik resursları ortaya qoymuşdu. Böyük dövlətlər, ABŞ-da Co Bayden administrasiyası, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen, Fransa və sair ölkələr COP-da nəticəsizliyə uğrayırdılar və bunu Azərbaycanın üzərinə atmağa çalışırdılar. Almaniya xarici işlər naziri Annalena Berbok qərar qəbul edilən günlərdə Bakıya gəldi və COP29-un işini çətinləşdirməyə çalışdı. Burada Azərbaycanın üzərinə düşən missiya bu cür kəskin qütbləşməyə baxmayaraq müzakirələrin axarını ortaq mövqeyə yönləndirə bilmək və məntiqi sonluğa gətirib çatdırmaq idi. Belə bir mürəkkəb maraqlar labirintinin içindən ildə 300 milyard dollarlıq maliyyə qərarı ilə çıxmaq iqlim diplomatiyasının ən üst səviyyəsi sayılmalıdır. Qlobal Şimalla Qlobal Cənub arasında çox kəskin geostrateji müharibələr getdiyi bir zamanda COP29 sədri olaraq Azərbaycanın üzərinə ağlasığmaz dərəcədə nəhəng vəzifə düşürdü. Ancaq Azərbaycan yüksək peşəkarlıq və fədakarlıq göstərərək 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard dollar məbləğində yardım göstərilməsi haqda yekun qərar verilməsinə nail oldu. Müzakirələr ilkin olaraq 200 milyard dollar ətrafında gedirdi, lakin Azərbaycanın uğurlu moderatorluğu ilə bu rəqəm 300 milyarda qaldırıldı. Bundan başqa, COP29 BMT çərçivəsində yüksək inteqrasiya edilmiş karbon bazarlarına dair 6-cı maddə üzrə danışıqların yekunlaşması üçün on il davam edən gözləntiyə son qoydu. Müvafiq karbon bazarlarından maliyyə axınları 2050-ci ilə qədər ildə 1 trilyon dollara çata bilər. COP29 eyni zamanda, İtki və Zərər Fondunu işə salmağa və fondun 2025-ci ildə pul vəsaitini paylaşdırmağa hazır olmasına müvəffəq oldu. Bundan başqa COP çərçivəsində ilk dəfə kiçik ada dövlətləri ilə əlaqədar Zirvə toplantısı keçirildi və bu dövlətlərin iqlim problemləri əsas istiqamətlərdən biri kimi müəyyən edildi. Qürur hissi ilə qeyd edə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək. Biz dünyanın 196 ölkəsindən gəlmiş və qeydiyyatdan keçmiş 72 mindən çox iştirakçıya ev sahibliyi etmişik. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazir olmuşdur. COP29 çərçivəsində Azərbaycanın iqlim strategiyası təqdim olundu və dünya ictimaiyyətinə ölkənin yaşıl enerji layihələri barədə ətraflı məlumat verildi. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən bərpa olunan enerji layihələri tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirildi. Burada 10 yeni külək və günəş enerjisi layihəsi ilə 2030-cu ilə qədər 30 faiz yaşıl enerji hədəfinə nail olmaq planlaşdırılır. Azərbaycanda iqlim dəyişiklikləri ilə mübarizə üzrə 5 illik milli strategiya təsdiqləndi. Xəzər dənizi ətrafında 10 yeni külək elektrik stansiyasının tikilməsinin planlaşdırılması tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

Ümumilikdə COP29-da əldə olunmuş razılaşma iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoydu. Bu barədə BMT-nin Baş Katibi Antonio Qutterеş öz bəyanatında bildirib: "COP29-da əldə olunan razılaşma qlobal istiləşməni 1,5 dərəcə selsidə saxlamaq məqsədini qorumaq üçün həyati əhəmiyyət daşıyır. Ölkələr vəzifənin öhdəsindən gəldi. Mən maliyyələşdirmədə və yumşaldılmada daha iddialı nəticələrə ümid edirdim, lakin bu razılaşma gələcək fəaliyyət üçün möhkəm əsas verir". COP29-a ev sahibliyi ilə Azərbaycan bir daha sübut etdi ki, o, qlobal əhəmiyyətə malik məsələlərin müzakirəsi üçün ideal platformadır. Azərbaycanın müasir infrastrukturu, təşkilatçılıq təcrübəsi və təhlükəsizlik baxımından təminatlı mühiti tədbirin uğurla keçməsinin əsas amillərindən biri oldu. Bu konfrans təkcə iqlim dəyişikliyi ilə bağlı aktual məsələlərin müzakirəsi üçün deyil, həm də ölkələrin əməkdaşlıq etməsi üçün yeni körpülər qurmaq baxımından da əhəmiyyətli idi və Azərbaycan təkcə təşkilatçı ölkə kimi yox, həm də qlobal oyunçu kimi öz mövqeyini bir daha sübut etdi. Bakı dünya siyasətinin qəlbi kimi döyünərək, ən mürəkkəb problemlərin müzakirə olunduğu bir məkana çevrildi. Bu konfrans Azərbaycanın yalnız bir müşahidəçi kimi deyil, qlobal çağırışlara cavab verən bir lider olduğunu dünyaya sübut etdi.

**Araz AĞAYEV,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur

Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çər/car "qala" mənasını verir. Kəlbəcərdəki oronomik toponimlərin hamısı türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır.Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb.Qədim Daş dövrünə aid yaşayış məskənlərindən biri olan Zar mağarasıda burada yerləşir.Kəlbəcər nəinki qədim dövrdəki insanların yaşayış yeri olub,eyni zamanda da orta əsrlərdə də insanların sığınacaq yeri olub-.Erkən orta əsrlərdə Albaniya dövlətinin tərkibində olan bu ərazilər Arşakilər sülaləsi tərəfindən idarə olunurdu.III Mömin Vaçaqanın dövründə bu ərazilərdə xristian alban məbədləri inşa olunmuşdu.Sonralar ermənilər bu abidələri qriqorianlaşdırmış,bir çox abidələri isə məhv etmişdilər.




Kəlbəcər 1993-cü ilin aprel ayının 3-dən Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. 1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 gündən çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşaraq 450 nəfərdən çox döyüşçü itki vermiş və mühasirədə olan 60 min Kəlbəcərlinin təxliyyəsinə nail olmuşdu. Döyüşdə həlak olmuş qəhrəmanlarımız Kəlbəcər torpağında yatır.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur, lakin həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilmədi.İşğal nəticəsində Kəlbəcərdən 53.340 nəfər adam qovulmuş, 50 dinc əhali öldürülmüş, 20 nəfər isə əsir götürülmüş və itkin düşmüşdür.

15 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonu işğaldan azad edildi. Bəyanata əsasən 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadılmışdır. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması, ərazinin böyüklüyü və humanizm göstərilmişdir.Məğlubiyyətlə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. Ərazini tərk edən ermənilər evləri ilə yanaşı meşələri də yandırmışdır.Nəhayət 25 noyabr 2020-ci il tarixində noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Kəlbəcər rayonu işğaldan azad edilmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olmuş və nəzarəti ələ almışdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdəki Xudavəng monastır kompleksində olublar. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış oldular.Prezident İlham Əliyev Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub.İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılacaq modul tipli məktəbin layihəsi ilə tanış olublar.

**Azad MƏMMƏDOV.**